

İSMAYIL (MƏRCANLI)
İMANZADƏ

## Əyilə bilmirəm

Hazır gülüşüm yox, üzdə saxlayam,
Payızda saxlayam, yazda saxlayam.
Ayrı sifətim yox, gizli saxlayam,-
Əyilə bilmirəm, əyməyin məni.

Böhtanın hörümçək torundan qaçım,
Şüşə parıltılı sərt baxışların
Ayazından qaçım, qarından qaçım.
Nə ehtiyac tilov, nə də mən acam,-
Əyilə bilmirəm, əyməyin məni.

Yarına bilmirəm əllərimə də,
Çox da oddan keçib, qabar bağlayıb.
Çox da yer şumlayıb, hörgü ucaldıb,
Məni dolandırıb, məni saxlayıb.

Nələr daşımayıb, nələr etməyib,
Bu ana əllərim öz ruzim üçün.
Kökümdən qoparam, sınaram, ancaq
Kömək diləmərəm bu əllərimə,
Kömək diləmərəm bir arzum üçün,-
Əyilə bilmirəm, əyməyin məni.

Palıd çubuğuyam, çinar şaxıyam,
Kölgədə yaşaram boynubükülü,
Əlçatmaz, ünyetməz dünyam bir zirvə,
Burda kövrəkliyim tarım çəkilib,-
Əyilə bilmirəm, əyməyin məni.

Mayam ana südü, günəş ziyası,
Üzümdə sadəlöhv uşaq həyası.
Qoyun bu adilik qütbündə azım,-
Əyilə bilmirəm, əyməyin məni,
Əyilən deyiləm, əyməyin məni...

## Deyirsən

Harda yanılmısan bilmirəm, harda
Hər şeyin mənasın gəzirsən varda.
Gözə görünmürdün çətində, darda,
İndisə nəyin var, bölək,- deyirsən.

İstəklə düzələn deyil kəm-kəsir,
Bilirəm, söz sənə eyləmir təsir.
Bəs niyə qarşımda dizlərin əsir,
Bir əsim mehə də külək deyirsən?

Xəbərin yoxdumu, əzəldən bəri
Məzardır insanın sonuncu yeri.
Yaxşı bil, kəfənini olmur cibləri,
Bəlkə sən ona da bələk deyirsən?

Savabdan qaçaqsan, günahdır yükün,
Kim deyər torpağa bağlıdır kökün?
Deyəndə cəhənnəm odundan çəkin,
O, varsa biz hardan bilək,- deyirsən.

Mürgülü vicdanın oyanmaz səsə,
Bəxtin ayaq üstə, yolların kəsə.
Əməlin düzdürsə niyə iblisə,-
Şeytana hər yerdə mələk deyirsən.

## Sevginin

Bir qız baxışında izini gördüm,
Alovunu gördüm, közünü gördüm.
İlk dəfə sevəndə üzünü gördüm
Məni haldan-hala salan sevginin.

Dilini əsdirən həya, ar imiş
Nifrəti-qəzəbi soyuq qar imiş.
Sonuncu gümanı xəyallar imiş,
Hərdən bulud kimi dolan sevginin.

Gül-çiçək ətirli pətəkdi, baldı
Enişli-yoxuşlu cığırdı, yoldu.
Əllərim dalınca uzalı qaldı,
Yarpaqtək saralıb, solan sevginin.

Mürgülü vaxtımda sellər apardı,
Canımı sızladan əllər apardı.
Bir ovuc külünü yellər apardı,
Avazı yadımda qalan sevginin.

03.01.2015

## Bilmirəm

Ay alın yazımın yaşıl talası,
Ölsəm avazıyan rəngin solası.
Bir az yaxına gəl, a dağ laləsı,
Qoy al yanağından öpüm, göyərsin.

Oyan, qara bəxtim, təzədən oyan,
Sən mənə sirdaş ol, mən sənə həyan.
Yuxumda çiçəyi, gülü çırtlayan
Çəməni gözümə təpim, göyərsin.

ƏrimƏz könlümü üşüdən o qar,
Nakam sevgim kimi gecikdi bahar.
Ovcumda bir xışma qəm toxumu var,
Bilmirəm heç hara səpim, göyərsin...

## Xəyanət

Baxışlar oğurluğu
öyrənər gizli-gizli.
Yalanın qarşısında
məhəbbət
solğun üzlü.
Nəfs acsa, duyğunu
cilovlamaq çətindir.
Məhəbbət
puç oldumu,-
növbə xəyanətindir...

## Ömür

Ötüb keçən anların
Hərəsi bir nişanda.
Seldən də güclü olur
İnsan səbri daşanda.

Nə əbədi bahar var,
Nə də soyuq qarlı qış.
Dərd özü də hardasa
Qəlbdə sellənən yağış.

Uralanır arzular,
Bircə anın içində.
Uzaqlara üz tutan
İllər durna köçündə.

Açarı tapılmayır
Pas atan qıfılların.
Damcılayır ürəyə
Göz yaşı narın-narın.

Bəxtin qıl körpüsündən
Adlayıb keçmək olmur.
Zülmətin uzununu,
Enini ölçmək olmur...

Kədərli-qəmli anlar
Zəhər kimi acıdır.
Həyat tapdanmış cığır,
Ölüm yol ayrıcıdır.

## İşlər belə getsə...

Mənim yurd həsrətim qəmli bir ağı,
Sinəmə çal-çarpaz dağ çəkdi yağı.
Bir vaxtlar haradan biləydim axı
Gəlib qalacağam Mingəçevirdə.

Bir gün elim-obam qayıtsa geri,
Məni səsləyəcək bir ocaq yeri.
Onda sanmayın ki, Bozdağı Diri-
Bilib qalacağam Mingəçevirdə.

Ölüm nə qorxudur, nə də ki, hədə
Bir göz qırpımında keçdi vaxt-vədə.
İşlər belə getsə, deyəsən, dədə,
Ölüb qalacağam Mingəçevirdə...

iyul, 2015

Kredo 2020.- 16 may.- S.15.